# Nəsimi fəlsəfəsi Hindistandakı huru dinin qaynağı kimi

*(Əvvəli ötən sayımızda)*

Məhz bu fəlsəfi ideya sufilərin səkkiz hal keçəndən sonra fənafillaha - ali varlığa qovuşması ideyasını doğurmuşdur. Hind fəlsəfəsinin hikmətləri sonradan Şərq ədəbiyyatındakı vəhdəti-vücud fəlsəfi düşüncəsinin əsas ideyalarına çevrilmişdir. Onlardan bir neçəsini göstərmək lap yerinə düşərdi:

"Mən heç vaxt Özümü səfehlərə və dərrakəsizlərə göstərmirəm. Daxili enerjimlə örtülü olduğumdan onlar məni görmürlər və buna görə də Mənim doğulmaz və qüsursuz olduğumu bilmirlər" - bu ideya demək olar ki, sufizmin əsas mahiyyətini təşkil edir. Belə ki, sufi özündə qüvvət tapmalı və daxili enerjisini artırmaqla ali varlığın dərki üçün onun enerji siteminə daxil olmaq imkanı əldə etməlidir. Yalnız bundan sonra həqiqət zirvəsinə çata bilər. Allahın qüsurlu olması ideyası sufizmidə bir qoldur. Farsdilli poeziyada bu ideyanın böyük təbliğatçılarından biri Ömər Xəyyam idi.

(Fələyin işinə qarışmaq üçün məndə Allah qüdrəti olsaydı, bu fələyi tamam aradan qaldırardım. Yenidən elə bir fələk yaradardım ki, azadələr asanlıqla ürəklərinin arzusuna çatardılar).

Bu ideya əslində Allahın xislətini tənqid etməkdir. Sufizmdə əzab-əziyyət Allahın bəndəsinə olan imtahan kimi başa düşülür. Bəzi sufi şairlər zülmü, həqarəti, azad insanlarının istəklərinin boğulmasına yaradanın həqarəti kimi baxır. Külli ixtiyar sahibi azadələrə imkan yaratmaq əvəzinə onların arzularına sədd qoyub bu dünyadan kam alamadan aparır. Kamı da Allah verir, arzunu da, məhrumiyyətləri də. Xəyyam, məhz buna görə Allaha qarşı üsyan edir və fələyin qanunlarının qəbuledilməz hesab edir.

Hind dini-fəlsəfi düşüncəsinin bəzi hikmətlərini nəzərdən keçirmək lap yerinə düşərdi: "Möminlər əksiliklərdən azaddırlar"; "Canlı varlıq bədəni tərk edərkən hansı həyat tərzini yada salırsa, sonrakı həyatda ona da nail olur"; "Bütün varlıqlar mənim içimdə olsa da Mən onların daxilində deyiləm"; "Mən bütün canlı varlıqların ayağıyam, baxmayaraq ki, mən hər yerdəyəm, lakin Mən bu kainatın hissəsi yox, Mən onun mənbəyiyəm";"Hər yerdə əsən qüdrətli külək həmişə fəzada qaldığı kimi, yaradılmış bütün canlı varlıqların da Mənim daxilimdə olduqlarını başa düş"; "Dövranın sonunda bütün maddi kainatlar Mənim təbiətimə daxil olur, növbəti dövranın başlanğıcında isə öz qüdrətim sayəsində Mən onları yenidən yaradıram";"Bütün maddi kainat mənə tabedir. Mənim hökmümlə o hər dəfə təzahür edir və vaxt gələndə, Mənim hökmümlə məhv olur"; "Enerjilərimdən biri olan bu maddi təbiət bütün hərəkətedən və hərəkət etməyən varlıqları Mənim nəzarətim altında yaradır"; "Ölməzlik də Mən, ölüm də Mənəm. Həm ruh, həm də materiya Mənim daxilimdədir" - bu ideya Nəsimi poeziyasında da sonralar öz əksini tapmışdır: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam"; "Günah əməllərin əks-təsirindən təmizləndikdən, onlar İndranın mömin səma planetində doğulur və ilahi həzzlərdən nəşələnirlər. Səma hissi aləmində hədsiz həzz aldıqdan sora onların mömin fəaliyyətlərinin nəticələri tükənir və onlar yenidən ölüm məskəni olan bu planetə qayıdırlar";"Lakin insan Mənim transsendental formama dalıb, daim Mənə sədaqətlə sitayiş edirsə, nəyi çatmırsa verirəm, nəyi varsa hamısını saxlayıram"; "Mənim həqiqi transsendental təbiətimi tanımayanlar aşağı yuvarlanırlar"; "Bütün biliklərdən Mən can haqqında ruhi biməliyəm, bütün məntiqlərdən isə Mən son həqiqətəm";"Bil ki, bütün heyrətamiz, gözəl və şərəfli şeylər mənim parıltımın qığılcımından törəyir";"Canlı məxluqlara xas olan müxtəlif keyfiyyətləri - ağılı, elmi, şübhəni, səhvləri, rəhmi, düzlüyü, hisslərə nəzarəti, ağlı idarə etməni, xoşbəxtliyi, bədbəxtliyi, doğuluşu və ölümü, qorxunu və qorxmazlığı, ədaləti, tarazlığı, məmnunluğu, zahidliyi, xeyriyyəçiliyi, şöhrəti və şərəfsizliyi - hamısını Mən yaratmışam".- bütün sufi filosofları da iddia edir ki, xeyirxahlığı dərk etmək üçün pislik, yaxşını dərk etmək üçün pis olmalıdır və onları Allah yaradıb.

"Mənim bu bədənimdə istədiyin hər şeyi görə bilərsən. Bu kainat forması indi istədiyin və gələcəkdə istəyəcəyin şeyləri sənə göstərə bilər. Hərəkətdə olan və hərəkətsiz hər şey burada bir yerdə cəmlənmişdir. Lakin sən Məni indiki gözlərinlə görə bilməzsən. Buna görə də Mən sənə ilahi gözlər verərəm. Mənim mistik qüdrətimi seyr et" - sufilər məhz, həmin mistik qüdrəti görmək üçün ilahi gözlər formalaşdırmağı qarşılarına məqsəd qoyur lar."Sən tükənməz mənbəsən, bütün səbəblərin səbəbisən və bu maddi kainata münasibətdə transsendentalsan"; "Sən bütün maddi dünyanın son sığınacağısan. Sən hər şeyi bilirsən və Sən dərkedilən biliksən. Sən maddi qanunların xaricində olan ali məskənsən. Ey hüdudsuz forma, Sən maddi kainatdakı hər şeyə daxil olursan";"Ey sonsuz qüdrət, Sən qeyri-məhdud qüdrət sahibisən! Sən hər şeyə daxil olduğun üçün hər şeysən" - sufilər məhz bu ideyaya görə insanları vücudi küllün zərrələri hesab edirlər.

"Həyəcandan müvazinətini itirməyən insan Mənə çox əzizdir";"Mütləq həqiqəti dərk etmək üçün fəlsəfi axta rışları mən bilik elan edirəm";"Ruh bu maddi dünyanın səbəb və nəticələri xaricindədir"; "Yüksək Can(ruh) hər şeyin daxilində mövcuddur";"Bütün canlı varlıqları saxladığına baxmayaraq, O, heç bir şeyə bağlı deyil. O, maddi təbiətin qanunlarının təsirinə uğramır və eyni zamanda onların hökmdarıdır";"Ali Həqiqət hərəkət edən və etməyən canlı məxluqların daxilində və xaricindədir. O, incə olduğuna görə Onu maddi hısslərlə görmək, yaxud dərk etmək mümkün deyil. O, çox uzaqda olsa da, eyni zamanda çox yaxındadır"; "O hər şeyi inkişaf etdirir və məhv edir";"O, bütün işıqsaçan cisimlərin işıq mənbəyidir. O, maddi zülmət xaricindədir və təzahür etmir. O, bilikdir, bilik obyektidir və biliyin məqsədidir. O, hər kəsin ürəyindədir";"Maddi təbiətin və canlı varlıqların başlanğıcı yoxdur. Onların dəyişikliklərə məruz qalmasının və maddi qanunların yaranmasının səbəbi maddi təbiətdir";"Bu dünyada bütün iztirab və həzzlərin səbəbi canlı varlıq hesab olunur"; "Bəziləri meditasiya vasitəsi ilə, başqaları biliyə yiyələnməklə, digərləri isə bəhrə gözləmədən fəaliyyət göstərməklə daxillərində olan Yüksək Canı dərk edirlər"; "Hər bir bədəndə fərdi canla yanaşı Yüksək Canın mövcud olmasını bilən həqiqi bilik sahibidir. Bu bilik sahibi ağlına nəzarət edib düşgünləşmir və bu yolla transsen dental məqsədə yaxınlaşır"; "Günəş təkbaşına bütün kainatı işıqlandırdığı kimi, bədənin daxilindəki canlı varlıq da bütün bədəni şüurla işıqlandırır"; "Maddi təbiətin əsarətindən qurtuluş yolunu dərk edə bilən insan ali məqsədə nail olur"; "Maddi təbiət xeyirxahşlıq, ehtiras və cəhalət qunalarından (əlamətlərindən) ibarətdir. Xeyirxahlıq insanı nurlandırır, günah əməllərin əks-təsirindən azad edir və xoşbəxtlik, bilik gətirir. Ehtiras saysız-hesabsız arzular və şiddətli istəklər doğurur. Buna görə də canlı varlıq maddi fəaliyyətə bağlanır. Cəhalət isə canlı varlıqları çaşdırır və ağılsızlıq, tənbəllik və yuxu törədib canı bağlayır»;"Xeyirxahlıq, ehtiras və cəhalət arasında daim mübarizə gedir: bəzən biri, digərinə qalib gəlir. Xeyirxaqlıq qalib olanda insan xoşbəxt olur, ehtiras insanı fəaliyyətə sövq edir, cəhalət isə ağılsızlığa sürükləyir»; "Mənim ali məskənim nə Günəş, nə Ay, nə də odla işıqlandırılmır. Ora çatanlar bir daha maddi dünyaya qayıtmırlar";"Bu məhdudlaşdırılmış dünyada olan canlı varlıqlar Mənim əbədi fraqmentar hissəcikləridir. Məhdudlaşdırılmış həyat sürdüklərinə görə onlar ağıl da daxil olmaqla altı hisslə ağır mübarizə aparırlar";"Mən hər planetdə mövcudam və bütün planetlər Mənim enerjimin sayəsində öz orbitlərində qalırlar"; "Maddi dünyada hər bir canlı varlıq qüsurludur, ruhi dünyadakı canlı varlıqlar isə qüsursuzdur"; "Təkəbbür, lovğalıq, şöhrətpərəstlik, qəzəb, kobudluq və cahillik allahsız təbiəti olan adamlara xasdır. Transsendental keyfiyyətlər qurtuluşa, allahsız keyfiyyətlər isə əsarətə aparır"; "Müqəddəs kitabların göstərişlərini qəbul etməyən və istədiyi kimi hərəkət edən adam nə kamilliyə, nə xoşbəxtliyə, nə də ali məqsədə nail olmayacaqdır"; "Xeyirxahlıq ömrü uzadır, həyatı təmizləyir, güclü, sağlam, xoşbəxt edir. Belə qida şirəli və yağlı, xeyirli və ürəyəyatandır. Ehtirasları isə acı, turş, duzlu, ədviyyəli, tünd, quru və qaynar yeməklər təmin edir ki, bunlar da iztirab, bədbəxtlik və xəstəliklər gətirir. Cəhalətə düçar olanlar üçünsə çürük, xarab olmuş qida qalıqları, yararsız məhsullardan hazırlanmış yeməklər xoşdur"

Bu kimi mühakimələr vaxtilə hürufilərin və başqa sufilərin yaratdığı fəlsəfi düşüncənin davamı idi. İndi belə bir sual ortaya çıxır: Nəsimi bu günkü insana nə verir? Bu sualın cavabı aşağıdakılardır:

- Nəsimi insana öyrədir ki, milyon illərin kontekstində özünə və yaşadığın ömrə bax və tarixi bilinməyən qərunələrin dövriyyəsində sənin ömür yolun hansl missiyanı daşıyır. Mövcud zəmanədə və mövcud mühitdə hansı missiyanı icra edə bilərsən. Bunları dərk etdikcə insan kamilləşir və arif səviyyəsinə qalxır;

- Nəsimi insanlara sağlam düşüncənin etiketlərini öyrədir ki, insan nadanlığı üzündən etdiyi günahların girdabında daim dərd çəkməsin, nəyin xeyir, nəyin şər əməl olduğunu anlasın, rəhmətli Yaşar Qrayevin dili ilə desək: Nəsimi insanı Allah səviyyəsinə qaldırdı, Darvin isə meymun... İnsan öz varlığında ilahi keyfiyyətləri dərk etdikcə ilahiləşir, kamilləşir və müqəddəsləşir. Təsadüfi deyil ki, sufilər kamilliyin mərhələlərində şəriəti, təriqəti, mərifəri və həqiqəti göstərirlər. Məhz həqiqətə aparan yolun keçidlərini Nəsimi başa salır;

- Nəsimi bütün dünyaya başa salır ki, sağlam ruhun sağlam bədəni olur, indikilərin dediyi kimi, "sağlam bədəndə sağlam ruh olar" – səhv fikirdir. Nəsimiyə görə külli varlıq ali varlığın əksidir (bəzən buna kölgə də deyirlər). İnsanın bədəni də, onun mənəvi varlığının əksidir. Mənəviyyat saflaşdıqca, insanın zahiri görkəmi də yaraşığa minir, üzündən nur yağır. Mənəviyyat ləkələndikcə insanın zahi görkəmində əcayib izlər meydana gəlir. Bu fəlsəfi düşüncə indi dünya parapsixoloqlarının təcrübəsində istifadə olunur;

- Nəsimi öyrədir ki, həyatında baş verən bütün problemlərin açarını özündə axtar: "SƏN (Allah) sana gər yar isən var, sən yari dildar istəmə, yari dildaer OL sana, sən yari dildar istəmə!". İnsan özündə olan ilahi keyfiyyətləri: şərəf, ləyaqət, vicdan, namuq, qeyrət, ədalət və s. keyfiyyətləri inkişaf etdirib hər cür şər işlərdən kənar olsa sağlam həyat yaşayıb, bəlalardan, dərdlərdən uzaq olar;

- Nəsimi öyrədir ki, xalqların böyüklüyü onların mənəviyyatının saflığından, ədalətinin gücündən və həqiqət duyğusunun böyüklüyündən keçir. Dünya saflara, adillərə, həqiqətpərəstlərə, sağlam əxlaqi-keyfiyyətlərlə yaşayanlara qucağın açır, mənəviyyatsızları isə zəlil edir. Nəsimi insanları aliliyə səsləyirdi ki dünyanın dərdləri azalsın;

- Nəsimi insanlara varlığın ilkin səbəbi olan EŞQi öyrədirdi. Onun fəlsəfəsində aşiqlərin üzündən nur yağar və onlar nurani olarlar, gözəlliyin ən mükəmməl formasını özlərində daşıyarlar; deyirdi: "səni bu hüsnü cəmal ilə ilə görüb, qorxdular haq deməyə, döndülər insan dedilər".

- Nəsimi insanlarada yüksək estetik düşüncə tərbiyə etmək istəyirdi ki, onlar haqqı görə bilsinlər, haqq aşiqi olsunlar. Deyirdi: "Həqbin nəzərin bayəd ruyi Xoda binəd, ğeşmi ki, bəvəd xudbin, key ruyi məra binəd" (Haqq görmək Allahı görməkdir, xudbin gözlər mənim üzümdəkini necə görə bilər?".

Ümumiyyətlə, Nəsimi irsi bəşəriyyətin XV əsr möcüzəsi idi. Yuxarıda da göstərdiyimiz kimi, onun ilahi kəlamları əsasında yeni dinlər yaradılıb. Tarixin hər dövründə Allah yer üzünə kamil insanları gətirir və onlar mövcud şəraitdə HAQQ yolunu insanlara göstərir. Əttar, Rumi, Nəsimi kimilərini də orta əsrlərdə yaradıb ki, bütün bəşəriyyətə haqq yolunu göstərsin. Təsadüfi deyil ki, ikinci Dünya müharibəsindən sonra bütün kilsələr toplanıb qurultay keçirdilər. Qurultayın gündəlik məsələsi bu olmuşdur ki, bütün xristianlara haqq yolunu göstərsinlər. Çünki milyonlarla insanlar kilsələrə şübhə ilə yanaşmaöa başlamışlar və deyirdilər ki, kilsələr adamları aldadır: dünyanı Allah yox, hitlerlər, stalinlər idarə edir. Allah idarə etsəydi, bu qədər haqsızlıqlar olmazdı. Bu məsələdə xristian teoloqları Şərq praktikasına isnad etdilər və gördülər ki, eyni hadisə XIII-XIV əsrdə Şərqin başına gəlmiş. Monqol yürüşləri müsəlmanların yaratdığı islam mədəniyyətini darmadağın etdi və onbların müqəddəs məscidlədini, pirlərini yerlə yeksan edib, minlərlə günahsız insanları qətlə yetirdi. İnsanların etiqadı zəifədi və sufizm Şərqdə geniş vüsət aldı. Hər bölgədə sufi xanəgahları yaradıldı və sufi təlimi gücləndi.

Müharibələr insanları vadar etdi ki, həyata sufizmin gözləri ilə baxsınlar. Avropa teoloqları da bu təcrübəni əsas götürüb Nəsimi kimi dahilərin ideyalarını əsas götürdülər. Nəsimin hansı ideyasına onlar isnad etdilər? Nəsimi Teymurləngin amansız yürüşlərinə qarşı çıxırdı. Bütün insanları bu vəhşiliklərə qarşı səfərbər etmək istəyirdi. Əks təqdirdə bunun cəmiyyət üçüçn üzüntülü olacağını iddia edirdi. Avropalılar da həmin ideyalara söykənərək islami ehkamları əsas götüedülər və başa düşdülər ki, "haqsızlığı görüb, ona susmaq günahdır və bu günahın cəzasını Allah verir". Hitlerin və Stalinin hakimiyyətə gəlməsi və minlərlə günahsız insanların konslaqerlərdə əzab çəkməsi haqsızlıq idi. Hitlerin ədalətsiz faşist siyasətinə və Stalinin ədalətsiz siyasi kursuna qarşı susmaq - ona şərik olmaq deməkdior və bunu cəzasını bütün ictimaiyyət çəkməlidir. Xristian teoloqları bu qənaətə gəldilər ki, din artıq siyasətdən uzaq olmalı və cəmiyyət sərt demokrtatik prinsiplərlə idarə olunmalıdır ki, siyasi riyakarlıqlar olmasın və Dünya müharibələri təkrar edilməsin. (Hərgah bu sərt tələblərə indi o qədər də əhəmiyyət verilmir və dünya Qüarabağ faciəsdinə qarşı riyakar mövqe tutur.... Bunun da cəzasını bizim faciələrə biganə olanlar çəkir: Rusiya Ukrayna böhranının girdabında, dünyada siyasi durum üçün məsuliyyəti boyunlarına götürən Avropa dövlətləri də qaçqın dalğasından yaxa qurtara bilmirlər) Axı vaxtilə xristian teoloqları isnad etdiyi Şərq filosofları açıq aydın deyirdi: "Bütün bəşəriyyət bir orqanizmdir, bir yedə baş verənlər başqa yerdə də ağrı verir (Sədi Şirazinin bu kəlamı BMT-nin qapısı üsütndə deviz kimi yazılıb) və ya Abdullah Şaiqin dili ilə desək: "Həpimiz bir günəşin zərrəsiyiz!"

Nəsimi dühası bəşəriyyətə sağlam həyatın və xoşbəxt gələcəyin yolunu göstərirdi. Demək olmaz ki, bəşəriyyət bunu başa düşmür və Nəsimi və onun timsalında bütün sufiləri rədd edir.... Əksinə 1997-ci ildə bütün dünya üzrə sorğu zamanı müəyyənləşdirilmişdir ki, bütün bəşəriyyət ən çox Cəlaləddin Rumini və onun ədəbi məktəbinin nümayəndələri olan Nəsimi kimi klassikləri çox mütaliə edir. Hətta avropalıların özləri də iddia edir ki, Nəsimi irsini dərindən öyrənəndən sonra həyatda düzgün qərarlar qəbul edib qabaqcıl həyat tərzi yaşayırlar.

Bizə də Nəsimini dərindən öyrənib, sağlam həyat tərzi yaşamaq və güclü olmaq düşər!....

**_Sənan İBRAHİMOV,_**
**_professor_**